*AMEA*
*Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2019, № 2*
*Səhifə: 51-56* *ISSN: 2663-4406*

*Orta əsrlər Azərbaycan ədəbiyyatı*

**UOT:** 821.512.162(091)

Jalə Əliyeva*

# NƏSİMİ TÜRK ƏDƏBİYYATŞÜNASLIĞINDA

***Xülasə***

Azərbaycan ədəbiyyatında fəlsəfi şeirin banilərindən hesab olunan Seyid İmadəddin Nəsimi mübariz poeziyası ilə bütün türk dünyasında əks-səda doğuran dahi sənətkardır. Ümumbəşəri ideyaları və yüksək bədii sənətkarlığı ilə türkdilli divan ədəbiyyatının, xüsusilə də poetik dilimizin inkişafında müstəsna rol oynayan İmadəddin Nəsimi yaradıcılığı təkcə Azərbaycan ədəbiyyatının deyil, ümumtürk ədəbiyyatının sərvətidir və təsadüfi deyildir ki, şairin əsərləri 1844-cü ildən 1880-ci ilədək Türkiyədə üç dəfə nəşr olunmuş, türk ədəbiyyatı tarixindən bəhs edən tədqiqatların əksəriyyətində Məhəmməd Füzuli, Qazi Bürhanəddin kimi Azərbaycan ədibləri ilə yanaşı, İmadəddin Nəsiminin də yaradıcılığı öyrənilmiş, tədris və təbliğ edilmişdir.

Məqalədə türk təzkirəçi və alimlərinin – Kastamonulu Lətifi, Hüseyn Ayan, Abdülbaki Gölpinarlı, xüsusilə Azərbaycan ədəbiyyatı və ədəbiyyatşünaslığı ilə yaxından bağlı olan Məhəmməd Fuad Köprülü və başqa tədqiqatçıların Nəsimi yaradıcılığının araşdırılmasına, şairin həyat və yaradıcılığının qaranlıq və mübahisəli məqamlarına aydınlıq gətirilməsinə verdikləri töhfələrdən bəhs edilmiş, türk nəsimişünaslığının səciyyəvi cəhətləri və istiqamətlərinə, başlıca tendensiyalarına aydınlıq gətirilmişdir.

Araşdırma zamanı Azərbaycan və türk alimlərinin şairin yaradıcılığına həsr olunmuş fundamental elmi əsərlərinə istinadlar edilmiş, Nəsimi irsinə aid araşdırmalar təhlil olunmuş və münasibət bildirilmişdir.

**Açar sözlər:** Nəsimi, təzkirə, tədqiqat, sənət, fəlsəfi şeir, yaradıcılıq, ədəbiyyatşünaslıq, türk elmi-ədəbi fikri.

## NASIMI IN TURKISH LITERARY CRITICISM

***Summary***

Seyid Imadeddin Nasimi, one of the founders of philosophical poetry in Azerbaijani literature, is a genius master in the Turkic world with his poetry of struggle. The creativity of Imadeddin Nasimi, who played a special role in the development of Turkic-speaking Divan literature and poetic language with his universal ideas and artistic creativity, is a treasure not only of Azerbaijani literature, but also of all Turkish literature. It's not accidental that poet's works were published three times from 1844 to 1880 and in most researches dealt with the history of Turkish literature, along with Azerbaijani writers such as Muhammed Fizuli and Gazi Burhaneddin, the creativity of Imadeddin Nasimi was studied, educated and introduced as well.

In the article it is dealt with the contributions of Turkish tezkire researchers and scholars – Kastamonulu Latifi, Huseyn Ayan, Abdulbaki Golpinarli and especially closely related to Azerbaijani literature and literary criticism, Muhammed Fuad Koprulu and others to the research of Nasimi's creativity and clarification of dark and controversial aspects of the poet's life and work; and explained the characteristic features, directions and main tendency of Nasimi studies.

The investigation was based on fundamental scientific works by Azerbaijani and Turkish scholars that dedicated to the poet's creativity, and the researchs about Nasimi's heritage are analyzed.

**Key words:** Nasimi, tezkire, research, art, philosophical poem, creativity, literary criticism, Turkic scientific and literary idea

* Filologiya elmləri doktoru.

**НАСИМИ В ТУРЕЦКОМ ЛИТЕРАТУРОВЕДЕНИИ**

***Резюме***

Сеид Имадеддин Насими, считающийся одним из основоположников философского стиха в азербайджанской поэзии, известен как великий творец, противоборствующая поэзия которого вызывала отзвук во всём тюркском мире. Творчество Имадеддина Насими, сыгравшее своими общечеловеческими идеями и высоким художественным искусством исключительную роль в тюркоязычной диванной литературе и развитии родного поэтического языка, является богатством не только азербайджанской, но и общетюркской литературы, и не удивительно, что произведения поэта три раза издавались в Турции, с 1844 по 1880-й гг. и изучались в исследованиях по истории турецкой литературы, преподавались и пропагандировались наряду с творчеством таких азербайджанских художников слова, как Мохаммед Физули, Гази Бурханеддин и др.

В статье говорится об исследовании творчества Насими турецкими поэтами и учёными – Лятифи Кастамонулу, Аян Гусейном, Абдулбакы Гёлпынарлы и др., и в особенности занимающимся непосредственно азербайджанской литературой и литературоведением Мохаммед Фуадом Кёпрюлю, о внесении ясности в обнаруженные ими неизвестные и спорные моменты жизни и творчества поэта, об освещении ценных признаков и направленности, главных тенденциях турецкого насимиведения.

Исследование базировалось на фундаментальных научных трудах азербайджанских и турецких учёных, посвящённых творчеству поэта, были анализированы труды, в которых выражено отношение к наследию Насими.

**Ключевые слова:** Насими, тезкире, исследование, искусство, философский стих, творчество, литературоведение, турецкая научно-литературная мысль

**Giriş.** Azərbaycan ədəbiyyatında fəlsəfi şeirin banilərindən hesab olunan Seyid İmadəddin Nəsimi böyük humanizm və hikmət dolu poeziyası ilə bütün türk dünyasında əks-səda doğuran dahi sənətkardır. Mübariz ideyaları ilə bəşər fikri tarixində inqilaba bənzər rezonans yaradan Nəsimi dünyagörüşü, Nəsimi düşüncələri və amallarının dünya ədəbiyyatına yol tapmasının ilk səbəbi onun poeziyasının humanizmi və insansevərliyidir.

Akademik Teymur Kərimli şairin bütün nəzəriyyələrin fövqündə dayanan fəlsəfəsinin mahiyyətini özünəməxsus obrazlı ifadə ilə belə açıqlayır: "Bundan (Kopernikin heliosentrik nəzəriyyəsinin irəli sürülməsindən – J.Ə.) 100 il əvvəl Nəsimi insanı Kainatın mərkəzinə yerləşdirmişdi və elan etmişdi ki, bütün maddi və qeyri-maddi aləm insanın başına fırlanır" [1, s.126].

Nəsimi poeziyası zəngin ənənələr üzərində formalaşmışdı. Hələ ondan neçə əsr öncə dahi Azərbaycan mütəfəkkiri Nizami Gəncəvi özündən əvvəl yaranmış maddi-mədəni sərvətləri, humanist dəyərləri inkişaf etdirərək o vaxtadək görünməmiş bir mahiyyətdə təqdim etmiş və bədii təfəkkürün zirvələrini fəth etmişdi. Nəsiminin yaşadığı dövr isə olduqca ziddiyyətli və təzadlarla dolu idi. Bəşəri düşünən zəka sahibləri insan həyatına və azadlığına düşmən kəsilən qanun-qaydalara etiraz etmək həddinə gətirilmişdi və bu etirazın da Şərqdə ən geniş yayılmış bariz nümunəsi Nəsimi poeziyası oldu. Nəsimi yaradıcılığı məqsədi əzəldən kamil insan yetişdirmək olan Azərbaycan poeziyasında hikmətlə doğma dilin sənətkarlıq qüdrətini ortaya qoyan anadilli şeiri birləşdirən bir körpü oldu. İmadəddin Nəsiminin Azərbaycan ədəbiyyatında mövqeyini dəyərləndirən akademik İsa Həbibbəyli yazır: "İmadəddin Nəsimi söz estafetini Nizamidən qəbul edib, Məhəmməd Füzuliyə ötürmək missiyasını şərəflə yerinə yetirmişdir" [2, s.11].

Ümumbəşəri ideyaları və yüksək bədii sənətkarlığı ilə türkdilli divan ədəbiyyatının, xüsusilə də poetik dilimizin inkişafında müstəsna rol oynayan İmadəddin Nəsimi yaradıcılığı təkcə Azərbaycan ədəbiyyatının deyil, ümumtürk ədəbiyyatının sərvətidir və təsadüfi deyildir ki, orta əsrlərdən başlayaraq türk təzkirəçi və alimləri – Kastamonulu Lətifi, Aşıq Çələbi, Həsən Çələbi Qınalızadə, Əmir Kəmaləddin Hüseyn, Bəyani Mustafa ibn Carullah, Katib Çələbi, Müstəqimzadə Süleyman Sadəddin Əfəndi, Hidayət, Şəmsəddin Sami, Əli Əmiri, Məhəmməd Təbrizinin təzkirə və kitablarında şairin əsərlərinə xüsusi yer ayrılmış, şeirləri 1844-cü ildən 1880-ci ilədək Türkiyədə üç

dəfə nəşr olunmuş, türk ədəbiyyatı tarixindən bəhs edən tədqiqatların əksəriyyətində, xüsusilə də, Məhəmməd Fuad Köprülü, Abdülbaki Gölpinarlı, Hüseyn Ayan, Turqut Karabəy kimi alimlərin əsərlərində Məhəmməd Füzuli, Qazi Bürhanəddin kimi sənətkarlarla yanaşı, İmadəddin Nəsiminin də yaradıcılığı öyrənilmiş, tədris və təbliğ edilmişdir. Bu gün də Azərbaycanda olduğu kimi, Türkiyədə də xalq arasında Nəsiminin həyatı, edamı və s. haqqında rəvayətlər dolaşmaqdadır.

Yeri gəlmişkən, qeyd edək ki, İmadəddin Nəsiminin əsərləri Azərbaycan elmi ədəbiyyatşünaslığında isə ilk dəfə 1921-ci ildə Yusif Vəzir Çəmənzəminlinin "Azərbaycan ədəbiyyatına bir nəzər" kitabında işıqlandırılmış, 1926-cı ildə isə Salman Mümtaz ilk dəfə Nəsiminin şeirlərini "Kommunist" nəşriyyatında nəşr etdirmişdir [3].

İmadəddin Nəsimi yaradıcılığı təkcə Azərbaycan ədəbiyyatına deyil, ümumilikdə türkdilli xalqların ədəbiyyatlarına təsir etmişdir. Akademik Həmid Araslı "İmadəddin Nəsimi (həyatı və yaradıcılığı)" məqaləsində Nəsiminin türk dünyasının Əlişir Nəvai, Şah İsmayıl Xətai, Xəlili, Süruri, Tüfeyli, Həbibi, Şeyxi, Zati, Necati kimi şairlərinin yaradıcılığına göstərdiyi təsirdən ətraflı bəhs etmişdir [4, s.284].

Məlumdur ki, orta əsr mənbələrində bir çox şairlərin doğum və ölüm yerləri, tarixləri, eləcə də digər bioqrafik məlumatlar haqqında dəqiq bilgilər ya yoxdur və ya da olduqca səthi və təzadlıdır. Nəsimi isə, məlum olduğu kimi, seçdiyi və uğrunda həyatını fəda etdiyi məslək və ideyalarını yaymaq üçün şəhərbəşəhər, kəndbəkənd gəzdiyindən, həbslərdən yayınmaq üçün çox vaxt kimliyini gizli saxlamaq, başqa ad altında yaşamaq məcburiyyətində qaldığından şairin doğulduğu və vəfat etdiyi yer, tarix və həyatının ayrı-ayrı məqamları haqqında olduqca müxtəlif, fərqli, hətta bəzən bir-birini təkzib edən fikir və mülahizələr yaranmışdır. Professor Fəridə Əzizova yazır: "Şairin keçdiyi əzablı yolları məntiqlə nəzərdən keçirdikdə, onun özünü bəlli etməməsinin, doğum yerini gizli saxlamasının səbəbi aydın olur. O öz şeirlərində kim olduğunu, harada doğulduğunu açıq şəkildə göstərə bilməzdi" [5].

İmadəddin Nəsimi haqqında məlumat verən türk mənbələrini nəzərdən keçirərkən aydın olur ki, türk təzkirəçi və ədəbiyyatşünasları da, təbii olaraq, bu məsələlərə daha çox diqqət yetirmişlər.

Türk ədəbiyyatşünaslığında Nəsimi yaradıcılığının öyrənilməsindən bəhs edərkən, şübhəsiz ki, ilk növbədə türk şair və təzkirəçisi Əbdüllətif Çələbinin (Kastamonulu Lətifinin) (1491-1582) "Təzkireyi-Lətifi"sində [6] yer alan fikirlərə münasibətimizi bildirməliyik. Qeyd edək ki, Lətifi, ona məşhurluq qazandıran, XVI əsrə qədər yaşayıb-yaratmış üç yüz otuz dörd şairin həyatı və əsərləri haqqında məlumatın yer aldığı, özünün "Təzkirətüş-şüəra" adlandırdığı, lakin daha çox "Təzkireyi-Lətifi" adı ilə tanınan əsərini 1543-1546-cı illər arasında yazmış və Qanuni Sultan Süleymana təqdim etmişdir. Lətifinin təzkirəsi Osmanlı zamanında yaranmış üçüncü (birinci təzkirə Əlişir Nəvainin, ikinci təzkirə isə Anadolu şairlərindən olan Səhi Bəyin təzkirələridir) təzkirədir və müəllif ilk dəfə olaraq burada şairləri əlifba sırası ilə düzmüşdür. Əsərin elmi dəyərini artıran və onu özündən əvvəlki təzkirələrdən üstün tutan "Müqəddimə"sini "divan şeirinin poetikası" [7] adlandırırlar. Lətifinin təzkirəsi nəinki türk alimləri, Azərbaycan ədəbiyyatşünasları (misal üçün, Salman Mümtaz) üçün də ilk mənbələrdən olmuş, şairin yaradıcılığından danışarkən məhz onun əsərindəki məlumatlara əsaslanmışlar. Doğrudur, son illərdə Azərbaycan alimlərinin apardığı araşdırmalardan da gördüyümüz kimi, Lətifi təzkirəsində qeyri-səhih məlumatlar, yanlışlıqlar da vardır. Məsələn, elə götürək şairin doğulduğu yer haqqındakı mülahizələri. Lətifinin fikrincə, Nəsiminin təxəllüsü şairin Bağdad yaxınlığındakı Nəsimdən olduğuna sübutdur, halbuki məlumdur ki, təxəllüs özlüyündə heç vaxt doğum yerini göstərmir və ona görə şairin adı Lətifiyə görə, Seyid İmadüddindir [5]. Lakin bununla belə, Lətifinin təzkirəsi Nəsimi haqqında ən qiymətli mənbələrdən biri olaraq qalır. Bu qiymətli mənbədə Nəsimi türkdilli şeirdə ilk şöhrət qazanan şair kimi dəyərləndirilir və onun türk ədəbiyyatı tarixindəki yeri yüksək qiymətləndirilir. Daha sonra Lətifi Nəsiminin Şərqin üç dilində - türk, fars və ərəb dillərində yazıb-yaratdığını, hər üç dildə mükəmməl "Divan" bağladığını qeyd edir. Müəllif şairin təriqət görüşlərindən, onun Şeyx Şibli və Fəzlullah Nəimi ilə münasibətlərindən də ətraflı bəhs etmişdir. Türk alimi Hüseyn Ayan Lətifinin şairin

mənsub olduğu təriqət haqqındakı maraqlı fikrini qeyd edir: “Seyyid Nesimi Hurufi deyildi, Nimetullahi idi. Amma Huruf ilminden haberdar idi. Latifinin Nesimi hakkında söyledikleri bunlardan ibarettir” [8, s.3].

Təzkirəçi, şairin qardaşı Şah Xəndan haqqında da danışır: bu məlumatdan aydın olur ki, qardaşı Nəsimiyə ehtiyatlı olmağı, fikirlərini açıq-aşkar bəyan etməməyi məsləhət bilmişdir. Lətifi elə Nəsiminin edam olunmasının səbəbini də öz fikirlərini kəskin şəkildə bəyan etməsində görür.

Kastamonulu Lətifinin təzkirəsindən sonrakı dövrdə yaranan türk təzkirələrinin əksəriyyətində müəlliflər öz sələflərinin fikirlərini sadəcə təkrarlamaq yolu ilə getmişlər. Aşıq Çələbinin 1568-ci ildə tamamladığı və təxminən dörd yüz iyirmi dörd şair haqqında məlumata “Məşairüş-şüəra” təzkirəsində [9] də bu halla rast gəlirik. Aşıq Çələbinin təzkirəsinin özündən əvvəlki bütün türk təzkirələrindən daha zəngin olduğunu deyən Orxan Şaiq Gökyay yazır: “Âşık Çelebi ömrünü bu bölgede geçirdiği için tezkirede yer alan şair ve müelliflerin büyük çoğunluğunu Rumeli vilâyetlerinden yetişenler oluşturmaktadır. Anadolu’da yetişenlerin adları ise pek azdır” [10].

Lətifidən 41 il sonra XVI əsrdə yaşamış digər müəllif - *Qınalızadə Həsən Çələbi* (1546-1604) 1586-cı ildə tamamladığı “Təzkirətüş-şüəra” əsərində Nəsiminin Bağdad yaxınlığındakı Nəsimdən olduğunu iddia edərək şairi İmadüddin adlandırır. Təzkirəçi qeyd edir ki, Seyidlər nəslindən olan şair hürufiliyi yayan Fəzlullahın müridi olmuşdur. Həsən Çələbi də Lətifi kimi hesab edir ki, şairin edam olunmasının səbəbi mübariz ideyalarını, təriqət görüşlərini açıq-aşkar yaymasıdır. Müəllif daha sonra şairin Hələbdə edam edildiyini, türk və fars dillərində divanının olmasını qeyd edir, səyahətləri haqqında və Muradın dövründə (hansı Muradın olduğunu qeyd etmir) Anadoluda olduğunu yazır [5].

Türk təzkirəçiliyi tarixində Məhəmməd Nail Dumanın “Töhfeyi-Naili” təzkirəsinin [11] xüsusi yeri vardır. Divan şairlərinin qısa bioqrafiyasını verən müəllif əsərini 72 müxtəlif qaynaqdan bəhrələnərək ərsəyə gətirmişdir. Nail Duman da şairi Şeyx İmadüddin Seyid Ömər Nəsimi kimi təqdim edir.

Nəsimi haqqında məlumat verən türk mənbələrindən biri də diyarbəkirli Əli Əmirinin (1857-1924) “Təzkireyi Şüərâ-yi Âmid” təzkirəsidir [12]. Təzkirənin yaranması səbəbindən bəhs edən Bedri Mermutlu yazır: “İçinde çok sayıda şair ve edip zuhur etmesine rağmen ne yazık ki o güne kadar hiçbir kimsenin Diyarbekir ediblerine mahsus bir biyografi eseri kaleme almayı düşünmemiş olduğunu gören Ali Emiri Efendi, “Tezkire-i Şuarâ-yı Âmid” yazmayı ve bundan başka “Mir’âtü’l-Fevâid fî Ahvâl-i Üdebâ ve Fuzalâ ve Meşâhîr-i Âmid” ismiyle şehrinin ulema ve fuzalâ ve san’atkârlarını mümkün olduğu kadar tahrir ve tespit etmeyi tasavvur ederek bu iki eseri kaleme almak için belge toplamaya karar vermiştir” [13, s.109]. Əli Əmiri də Aşıq Çələbi kimi şairi Müslihüddin adlandıraraq Nəsiminin Diyarbəkirdən olduğunu yazır.

Lətifinin təzkirəsindəki fikirlərə Şəmsəddin Sami bəy Fraşerinin (1850-1904) “Qamusul-Alam” (“Şəxs adları lüğəti”) [14] əsərində də rast gəlirik. Alban jurnalisti Şəmsəddin Sami İoannina şəhərində təhsil almış, Afrikanın Tripoli şəhərinə (indi Liviyanın paytaxtıdır) iki illik sürgünü nəzərə alınmasa, demək olar ki, bütün ömrünü Konstantinopolda (indiki İstanbulda) keçirmişdir. O, leksikoqrafiyaya dair əsərləri ilə xüsusi şöhrət qazanmış, həmçinin ədəbiyyat sahəsində də əhəmiyyətli işlər görmüşdür. Yuxarıda adını çəkdiyimiz “Qamusul-Elam” da məhz bu əsərlər sırasındandır. 1889-1898-ci illərdə yaradılmış, hər biri 800 səhifə olmaqla 6 clddən ibarət, daha çox tarixi-coğrafi ensiklopediya xarakteri daşıyan lüğət həm Şərq, həm də Qərb (fransız) materiallarına əsaslanaraq yazılmışdır.

Türk ədəbiyyatşünaslığında Nəsimi yaradıcılığının öyrənilməsində “Türkiyəyə modern bilim standartlarını gətirən” [15, s.19], “Türkiyədə yaşayan insanlara bilimsəl yöntəmi öyrədən” [15, s.20] Məhəmməd Fuad Köprülünün böyük xidmətləri olmuşdur.

Qeyd etmək lazımdır ki, M.F.Köprülünün yaradıcılığı Azərbaycan ədəbiyyatı ilə də bağlı olmuşdur və ədibin Azəri ədəbiyyatına aid tədqiqlər” [16] əsəri bu gün də öz elmi dəyərini qoruyub saxlamışdır. Bundan başqa M.F.Köprülü “Türk ədəbiyyatında ilk mütəsəvviflər” [17] kimi möh-

təşəm tədqiqatında Azərbaycan ədəbiyyatının Məhəmməd Füzuli və İmadəddin Nəsimi kimi şairlərinin yaradıcılıqları haqqında yüksək fikirlər söyləmişdir. Alim adlarını çəkdiyimiz Azərbaycan şairlərinin Türkiyədə və Orta Asiyada da sevilməsinin və əsərlərinin yayılmasının səbəblərini açıqlayır: "Orta Asiya türkleri ile Azerbâycan türkleri arasındakı edebi münasibetler eskiden beri pek sıkı ve kuvvetli olduğu için bu iki büyük Azeri şairinin (Məhəmməd Füzuli və İmadəddin Nəsimi nəzərdə tutulur – J.Ə.) Anadoluda olduğu kibi Orta Asiyada da yerli sayılacak kadar tanınmış olmasını tabii görmelidir" [17, s.171].

Məhəmməd Füzuli və İmadəddin Nəsimi haqqında görkəmli tədqiqatlar və tərtiblər müəllifi olan, 1979-cu ildə Nəsiminin həyat və yaradıcılığına dair "Seyyid Nesimi (Hayatı, Eserleri ve Türkçe divanının tenkitli metni)" mövzusunda doktorluq işini müdafiə edən Hüseyn Ayan öz əsərində "Lətifinin təzkirəsi"nə istinad etmişdir. Türk alimi Nəsimini ümumtürk ədəbiyyatının böyük nümayəndəsi kimi dəyərləndirir: "İslami Türk Edebiyatının büyük şairlerinden olan Nesiminin hayat hikâyesi ve edebi şahsiyeti karanlıklar içindedir..." [8, s.1]. Hüseyn Ayanın fikrincə, bu qaranlıqların aydınlanması üçün ən yaxşı mənbə elə şairin öz əsərləridir.

Nəsiminin Fars divanının türk dilinə tərcüməçisi Veyis Dəyirmançayın şairin həyatının ayrı-ayrı məqamları, xüsusilə mənbələrin səhihliyinə dair fikirləri maraqlıdır. Professor Fəridə Əzizova Nəsimi haqqındakı tədqiqatında türk müəllifinin şair haqqındakı maraqlı fikrini xatırlayaraq yazır: "Ola bilsin ki, Nəsimini əbəs yerə çarmıxa çəkiləndən sonra həyat verilən İsa Məsihlə müqayisə etmirlər. Bir çox tədqiqatçıların, o cümlədən şairin yaradıcılığının türk araşdırmaçısının (Veyis Dəyirmançay nəzərdə tutulur – J.Ə.) hesab etdiyi kimi, "İsa gibi sonsuzadek hayattadır" [5].

Türk alimi Turqut Karabəyin "Nesiminin Hayatı ve Farsça Divanı" (Erzurum, Atatürk Üniversitesi Türkiyat Araştırmaları Dergisi, 1997) şairin həyatının tədqiqindəki dəyərli araşdırmalardan sayılır. Turqut Karabəy Nəsiminin Şirvandan olmasını təsdiqləyir: "Azerbaycan Türk Edebiyat tarihinde Nesiminin doğum yeri olarak Şemahı yazılıdır ve bu yüzden Nesimi-i Şirvani diye adlandırılmıştır. Nesiminin Türkçe divanındaki dil özellikleri de bu iddiayı isbat için doğru bir örnek olabilir ve Nesiminin oldukça uzun bir süre Baküte yaşadığı hususunda şüpheye yer yoxtur" [18, s.68].

Daha sonra şair, ədəbiyyatşünas və ilahiyyat alimi Kamal Edib Kürkçüoğlu və [19] İsmail Özmənin [20] adlarını çəkmək istərdik. Şairin əsərlərinin nəşri sahəsində dəyərli xidmətləri ilə Nəsiminin tədqiqi işinə öz töhfələrini vermiş hər iki alim bu fikirdədir ki, Nəsimi – əcdadlarının bir neçə nəsli ərəb mühitində yaşayan və öz türk köklərini, əsil-nəcabətini unutmayan türkdür.

Nəsimi haqqında məlumatın yer aldığı daha bir mənbə Osmanlı tarixçisi Bursalı Mehmet Tahirin (1861-1925) məşhur üççildlik "Osmanlı müəllifləri" [21] əsəridir. Kitabda tanınmış osmanlı şeyxləri, hüquqşünasları, şairləri, ədibləri, tarixçiləri, həkimləri, riyaziyyatçı və coğrafiyaçılarının bioqrafiyası verilmişdir. Birinci cilddə mütəsəvviflər və alimlər, ikinci cilddə şairlər və ədiblər, üçüncü cilddə isə tarixçilər, təbiblər, riyaziyyatçılar və coğrafiyaçılar yer almışdır. Türk tarixçisi məşhur əsərində şairimizdən "Seyid İmadüddin Seyid Ömər Nəsimi" deyə bəhs etmişdir. Lakin alimlərin əksəriyyəti şiəlik təriqətinə mənsub şairin adının Ömər olması ehtimalını qəbul etmirlər. V.Dəyirmançay bu barədə yazır: "İyirminci yüzilə qədər heç bir qaynaqda olmayan bu ad (Ömər), şairin nə adıdır, nə də ləqəbi, Nəsimi adlı başqa bir şairlə qarışdırılmış bir addır" [22, 13].

Azərbaycan şairi İmadəddin Nəsimidən bəhs edən türk alimlərindən danışarkən İbrahim Agah Çubukçunun, Mehmed Əli Ayninin, Ə.Gölpınarlının da adlarını qeyd etmək lazımdır.

**Nəticə.** Təbii ki, Nəsimi yaradıcılığı bütün dövrlərdə türk ədəbiyyatşünaslığının diqqət mərkəzində olmuşdur və mövzu kifayət qədər geniş olduğu üçün bir məqalə çərçivəsində problemi tam əhatə etmək mümkün deyildir. Odur ki, biz ən önəmli hesab etdiyimiz tədqiqatlara toxunduq.

**ƏDƏBİYYAT**


1. Teymur Kərimli. İmadəddin Nəsimi yaradıcılığında humanizm. Böyük Azərbaycan şairi İmadəddin Nəsimi. Bakı, "Elm", 2019.
2. İsa Həbibbəyli. Cahana sığmayan Azərbaycan şairi. Böyük Azərbaycan şairi İmadəddin Nəsimi. Bakı, "Elm", 2019.
3. Kərimov Paşa. Nəsiminin Avropa və Şərq poeziyasına böyük təsiri olub. https://www.aydinyol.az/newsview/1588/Nesiminin-Avropa-ve-Sherq-poeziyasina-boyuk-tesiri-olub
4. Araslı Həmid. İmadəddin Nəsimi (həyatı və yaradıcılığı). İmadəddin Nəsimi. Azərbaycan ədəbiyyatı: tarixi və problemləri. Bakı, Gənclik, 1998.
5. Əzizova Fəridə. İmadəddin Nəsiminin dövrü və həyatı. Böyük Azərbaycan şairi İmadəddin Nəsimi. Bakı, "Elm", 2019.
6. Kastamonlu Latifi. Tezkire-i-Latifi. İstanbul. İkdam Matbaası, 1314. Latifi Tezkiresi (hazırlayan Mustafa İsen) Ankara, 1990.
7. Lâtifî. https://www.biyografya.com/biyografi/6994
8. Hüseyin Ayan. Seyyid Nesimi (Hayatı, edebi kişiliği, eserleri ve türkçe divanının tenkitli metni). Ankara, Türk Dil Kurumu. 2014.
9. Aşık Çelebi. Meşairu-ş-şüəra. Ankara II. Halk Kütüphanesi. (Eski Eserler Bölümü) № 2406.
10. Orhan Şaik Gökyay. *Meşâirü'ş-Şuarâ.* https://islamansiklopedisi.org.tr/mesairus-suara
11. Mehmet Nail Tuman. Tuhfe-i-Naili (hazırlayan Cemal Kurnaz Mustafa Tatçı). Ankara, 2001.
12. Ali Emiri. Tezkire-i-Şuara-yi Amid. İstanbul, Matbaa-i Amidi, 1328 h.
13. Bedri Mermutlu. Bir kültür tarihçisi olarak Ali Emiri Efendi'nin biyografi yazarliği – kaynaklari ve yöntemi. // U.Ü. Fen-Edebiyat Fakültesi Sosyal Bilimler Dergisi yıl: 14, sayı: 24, 2013/1.
14. Şemseddin Sami. Kamusu-l-a'lam. İstanbul, Mihran Matbaası, 1316 h.
15. Celal Şengör. Türkiyəyə modern bilim standartlarını gətirən adam: Fuad Köprülü. Bütün dünya. Tümmuz, 2001.
16. Köprülüzadə Məhəmməd Fuad. Azəri ədəbiyyatına aid tədqiqlər. Bakı, Sabah, 1996.
17. Köprülüzadə Fuad. Türk edebiyatında ilk mutasavvıflar. Ankara, Özkan Matbaaçılik sanayii, altıncı basım. Diyanet içleri başkanlığı yayınları, 1987.
18. Turqut Karabey. Nesiminin Hayatı ve Farsça Divanı. Erzurum, Atatürk Üniversitesi Türkiyat Araştırmaları Dergisi. S. 7, 1997.
19. Kürkçüoğlu Kemal Edib. Seyyid Nesimi Divanından Seçmeler. Ankara, Kültür Bakanlığı Yayımları, 1985.
20. Özmen İsmail. Alevi-Bektaşi Şiirler Antolojisi, Ankara, Kültür Bakanlığı Yayımları, 1998.
21. Bursalı Mehmet Tahir. Osmanlı müellifleri. 3 ciltte. II c. İstanbul, 1333 h.
22. Veyis Değirmençay. İmadüddin Nesimi ve Farsça Divanı'nın türkçe çevirisi. Erzurum Atatürk Universitesi Fen-Edebiyat Fakültesi Matbaası Erzerum. 2005.